

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 158 (21.819)

*22 avqust 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunda iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin başçılıq etdiyi, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq prezidentləri Rosen Plevneliev və Petar Stoyanov, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, İsrailin sabiq Prezidenti Dalia İtzik, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya və Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətinin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun getdikcə artdığı, tərəfdaşlarının çoxaldığı, fəaliyyət istiqamətlərinin genişləndiyi vurğulanıb və Mərkəzin gələcək fəaliyyəti ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunun əhəmiyyəti qeyd edilib.

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında sərhəd xidmətində səmərəli fəaliyyətlərinə görə:

Hacıyev İlkin Qafar oğlu

Hüseynov Məhəmməd Çingiz oğlu

Manaflı Fərid Vaqif oğlu

Musayev Ülvi Süleyman oğlu – **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı ilə;

Əsədov Etibar Əsəd oğlu

Həsənov Allahverdi Abbas oğlu

Xəlilov Məhəbbət Heydər oğlu

Nəzərov Ramiz Əli oğlu

Rzayev Zahid Məmmədhüseyn oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 avqust 2017-ci il*

## Naxçıvanda yüksək bal toplamış tələbələrlə görüş olub





Avqustun 21-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında ali, ali hərbi və orta ixtisas məktəblərinə qəbul imtahanlarının uğurla başa çatdığını bildirmiş, tələbə adını qazanan bütün məzunları, onların valideynlərini və müəllimlərini təbrik edərək demişdir: Yaşadığımız dövr bizdən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir. Gənclik və təhsil məsələlərinə münasibətdə belə bir fikir özünü daha aydın şəkildə büruzə verir ki, güc - bilikdədir. Ölkələrin gücü isə onların malik olduqları təhsilli və vətənpərvər gəncliklə, milli kadr potensialı ilə ölçülür. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində əsasını qoyduğu təhsil strategiyası da ölkəmizdə milli köklərə bağlı, yeni təfəkkürlü və təhsilli gənc kadrların yetişdirilməsinə hesablanıb. Bu gün dahi şəxsiyyətin ideyaları Naxçıvan Muxtar Respublikasında böyük yaradıcı gücə çevrilib. Elm və təhsil quruculuğunda müasir dövrün çağırışları nəzərə alınır, ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi ***“Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi”*** prinsipi ardıcıl şəkildə icra olunur.

Ali Məclisin Sədri demişdir: Tədris prosesində gənclərimiz ən qabaqcıl texnologiyalardan, distant təhsil imkanlarından istifadə edirlər. Bütün yaşayış məntəqələrində şagirdlərin istifadəsinə müasir məktəb binaları, tədris avadanlıqları, sürətli internetə çıxışı olan 4242 kompüter, 600-ə yaxın elektron lövhə, zəngin fonda malik kitabxanalar, laboratoriyalar və idman zalları verilib. Yaradılan şərait artıq öz bəhrəsini göstərməkdədir. Ümumtəhsil məktəblərini bitirən gənclər ali, ali hərbi və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərir, ixtisaslı kadr kimi yetişərək ölkəmizin inkişafında, həyata keçirilən quruculuq tədbirlərində yaxından iştirak edirlər. Gənclərin təhsili ilə yanaşı, onların işlə təminatı da diqqət mərkəzindədir. İstər dövlət idarəçiliyində, istərsə də ictimai və təsərrüfat fəaliyyəti sahələrində gənclərə böyük etimad göstərilir, ölkəmizin inkişafında, müstəqil dövlətimizin möhkəmlənməsində və müdafiəsində gənc kadrların potensialından geniş istifadə olunur.

Ali Məclisin Sədri demişdir: Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır. Bütün bu qeyd olunanları nəzərə alaraq Vətənimizin və xalqımızın inkişafı naminə yaxşı təhsil almalı, seçdiyiniz ixtisası mükəmməl öyrənməli, öz peşənizin sahibinə çevrilməlisiniz. Hər bir gənc müstəqil Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımalı, ana dilini və Vətən tarixini dərindən öyrənməli, milli dəyərlərimizə sahib çıxmalı, özünü mənsub olduğu xalqa layiqli vətəndaş kimi hazırlamalıdır.

Ali Məclisin Sədri çıxışını ümummilli liderimiz Heydər Əliyevin “Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına Müraciəti”ndəki fikirləri ilə tamamlamışdır: ***“Gərək gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin… Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, Azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir... Çünki Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir”.***

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov tədbirdə çıxış edərək demişdir ki, 2017-ci ilin ötən dövründə muxtar respublikada 2716 şagird yerlik 5 məktəb binası istifadəyə verilmişdir. Hazırda 8 məktəb binasının tikintisi davam etdirilir. Təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır. İyunun 17-də Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərində ilk dəfə olaraq yeni formatda buraxılış imtahanları keçirilmiş və imtahanlarda IX sinif üzrə 3704, XI sinif üzrə 2957 məzun iştirak etmişdir. Keçirilən buraxılış imtahanlarının nəticələri göstərir ki, muxtar respublikada təhsil sahəsində keyfiyyət amili yüksələn xətt üzrə inkişaf etmişdir. IX siniflərin buraxılış imtahanlarında Ana dili fənni üzrə müvəffəqiyyət 98,7 faiz, riyaziyyat fənni üzrə müvəffəqiyyət 95,1 faiz təşkil etmişdir. XI siniflər üzrə keçirilən imtahanlarda isə Ana dili fənni üzrə müvəffəqiyyət 91,1 faiz, riyaziyyat fənni üzrə müvəffəqiyyət 89 faiz, xarici dil fənni üzrə müvəffəqiyyət 82,1 faiz təşkil etmişdir. Bu isə öz növbəsində ali məktəblərə sənəd qəbulunun, eyni zamanda tələbə qəbulunun səviyyəsinin artmasına müsbət təsir göstərmişdir. 2017-ci ildə ümumtəhsil məktəblərini 2758 məzun bitirmişdir. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2331 nəfər olmuşdur. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 78,4 faizi deməkdir. Məzunlardan 151-i xüsusi təyinatlı ali məktəblərə qəbul üçün sənəd vermişdir. Bu il muxtar respublikanın ümumtəhsil

*Ardı 2-ci səhifədə*

məktəblərindən ümumi orta təhsil bazasından 1150 məzun orta ixtisas məktəblərinə qəbul üçün sənəd vermişdir. 2017-ci il qəbul imtahanlarında məzunları yüksək nəticələr göstərən məktəblərin sayı 108-ə çatmış, 125 məzun xarici dil ixtisasında oxumağa üstünlük vermişdir.

Qeyd olunmuşdur ki, ali təhsil müəssisələrinə qəbul prosesində yüksək nəticələrə nail olanlar içərisində qızların sayı artmaqdadır. 2017-ci ildə 500-700 arası bal toplayanların içərisində qızların sayı 174 nəfər və ya 60,2 faiz olmuşdur. Ümumilikdə, tələbə adını qazanan məzunların isə 784-ü və ya 52,2 faizi qızlar olmuşdur. Naxçıvan şəhəri üzrə 60, Şərur rayonu üzrə 36, Babək rayonu üzrə 38, Ordubad rayonu üzrə 41, Culfa rayonu üzrə 32, Şahbuz rayonu üzrə 19, Kəngərli rayonu üzrə 18, Sədərək rayonu üzrə 4, Heydər Əliyev adına tam orta məktəb üzrə 11, Naxçıvan Qızlar Liseyi üzrə 13, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üzrə 9 və Naxçıvan Qarnizonunun tam orta məktəbi üzrə 8 məzun 500-700 arası bal toplamışdır. Muxtar respublikamızın ali təhsil müəssisələrində yaradılan yüksək təhsil şəraitinin nəticəsidir ki, abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil almağa daha çox üstünlük verirlər. 2017-ci ildə abituriyentlərin 1201-i, yaxud 80 faizi ixtisas seçimi zamanı Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişlər.

Təhsil naziri demişdir ki, 2016-2017-ci tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran 15 məzun "Qızıl", 6 məzun "Gümüş" medala, 113 məzun isə fərqlənmə attestatına layiq görülüb. Qəbul imtahanlarında həmin məzunlar onlara göstərilən etimadı doğrultdaraq 500-700 arası bal toplayıblar. Muxtar respublikamızda fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən



tədbirlər bu sahəyə marağı artırmışdır. Bu il orta ixtisas məktəblərinə sənədvermədə artım olmuş və orta ixtisas məktəblərinə ümumi orta təhsil bazasından sənəd verən məzunlardan 320-si tələbə adını qazanmışdır. 2016-2017-ci tədris ilində peşə təhsili istiqamətində xeyli irəliləyiş olmuşdur. Yaradılmış 1 və 3 aylıq qruplardan tədris ili ərzində 3339 müdavim məzun olaraq müvafiq təhsil sənədi almış və istehsalatın müxtəlif sahələrində fəaliyyətə başlamışlar. Muxtar respublikada aparılan uğurlu ordu quruculuğu gənclərin hərbi təhsil sahəsinə marağını artırmışdır. Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 670 şagird sənəd vermiş, onlardan 124-ü kursant adını qazanmışdır. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul üçün 379, Qızlar Liseyinə isə 159 şagird sənəd vermiş, imtahanın nəticələrinə əsasən liseylərin hər birinə 61 şagird qəbul olunmuşdur.

Valideyn Elmar Camalov çıxış edərək demişdir ki, bu gün Naxçıvan Muxtar Respublikasında davamlı inkişaf və sabitliklə yanaşı, həm də sağlam mənəvi mühit formalaşıb. Övladlarımız milli ruhda tərbiyə olunur, hərtərəfli təhsil alır, yüksək diqqət və qayğı əhatəsində əsl vətəndaş kimi yetişirlər. Hər bir valideyn fəxr edir ki, övladı ən müasir şəraiti olan məktəblərdə təhsil alır. Övladlarımız milli dəyərlərimizə, adət-ənənələrimizə, tariximizə hörmətlə yanaşan, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər kimi yetişirlər. Bütün bunlar müasir Naxçıvanda təhsilin inkişafını göstərməklə yanaşı, həm də etibarlı gələcəyimizdən soraq verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək bal toplayan tələbələrlə görüşməsi onları daha yaxşı oxumağa ruhlandırır, biz valideynlərin isə ölkəmizin gələcəyinə cavabdehlik hissini daha da artırır. Mənim övladım da yaradılan təhsil şəraitindən bəhrələnərək qəbul imtahanlarında fəal iştirak etmiş, 670 bal toplayaraq Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat ixtisasına qəbul olunmuşdur. Bir valideyn üçün bundan böyük sevinc ola bilməz. Qürurlanırıq ki, təhsilin böyük hamisinin rəhbərliyi dövründə yaşayır və fəaliyyət göstəririk. Bu gün bu zalda toplanan sağlam gənclik – bizim övladlarımız işıqlı ideyalarımızın davamçıları olacaqlar.

Qəbul imtahanlarında 685 bal toplamış tələbə Novruz Nəcəfli demişdir ki, bu gün muxtar respublikada gənclərin yaxşı təhsil alması, vətənpərvər böyüməsi üçün hər cür şərait yaradılıb. Təhsil quruculuğu sahəsində görülən işlərin nəticəsidir ki, Naxçıvanda gənclər savadlı, geniş dünyagörüşlü, fiziki cəhətdən sağlam və əsl vətənpərvərlər kimi formalaşırlar. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərimizin müasir informasiya texnologiyaları, dərslik və bədii ədəbiyyatlarla zənginləşdirilməsi gənclərin daha yaxşı təhsil almasına imkan verir. Təhsil aldığım Culfa rayonunun Yaycı kənd 2 nömrəli tam orta məktəbində də ən müasir tədris şəraiti vardır. Bu il də tam orta təhsili xüsusi nailiyyətlərlə başa vuran bir qrup məzun qızıl və gümüş medallarla təltif olunub. Mən də "Qızıl" medala layiq görülmüşəm. Bu etimadı doğruldaraq qəbul imtahanlarında 685 bal toplamış və Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olmuşam. Ali məktəblərə qəbul olunan bütün tələbələr adından minnətdarlıq edən Novruz Nəcəfli demişdir ki, biz vətən qarşısında, rəhbər qarşısında öz borcumuzu hiss edir və əmin edirik ki, harada oxumağımızdan asılı olmayaraq göstərilən etimadı doğruldacaq, Azərbaycan gəncliyinin adına layiq olacağıq.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" kitabı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

*İstehsal müəssisələri*

## Tikinti materiallarına olan tələbatın dolğun ödənilməsində Sement Zavodunun xüsusi rolu vardır

### *Bu zavod iqtisadi potensialımızın daha da möhkəmləndirilməsinə böyük töhfədir*



*Muxtar respublikamızın elə bir şəhəri, qəsəbəsi, kəndi olmaz ki, doğma diyarımızda gedən genişmiqyaslı quruculuq işlərindən bəhrələnməsin. Paytaxt Naxçıvan şəhərində, rayon mərkəzlərində, qəsəbə və kənd yaşayış məntəqələrində sürətlə aparılan quruculuq işləri bütün bölgələrimizdə eyni səviyyədə həyata keçirilir. Saysız-hesabsız infrastruktur obyektlərinin istifadəyə verilməsi muxtar respublikamızda iqtisadi inkişafın təmin olunması ilə bərabər, inşaat sektorunun böyük bir sürətlə genişlənməsindən xəbər verir. Sevindirici hal bundan ibarətdir ki, müstəqilliyimizin ilk illərində tikinti sektorunda bütün məhsullara olan tələbat, sadəcə, idxal hesabına ödənilirdisə, bu gün yerli istehsal daxili imkanlar hesabına həyata keçirilir. Sözsüz ki, yerli inşaat materialları xaricdən gələn məhsullardan həm keyfiyyəti, həm də qiymətlərinin sərfəliliyi ilə fərqlənir. İnşaat sektorunda yerli inşaat materiallarından istifadə edilməsi xaricə valyuta axınının qarşısını alır, eyni zamanda məşğulluq məsələlərinin həllinə, əhalinin sosial rifah halının yaxşılaşmasına səbəb olur.*

Tikinti-quruculuq tədbirlərinin geniş miqyas alması ilə inşaat materiallarına olan tələbat da ilbəil çoxalır. Dövlətimizin iqtisadi qüdrətinin artması, əhalinin sosial rifah halının yaxşılaşması nəticəsində tikinti sektorunda, fərdi yaşayış evlərinin inşasında böyük canlanma müşahidə olunmaqdadır. Tikinti sektorunda ən çox tələbat duyulan inşaat materiallarından biri də sementdir. Uzun müddət bu məhsula olan tələbat idxal hesabına ödənilirdi. Bu da, təbii ki, dövlət büdcəsindən külli miqdarda vəsaitin xaricə axmasına, nəqliyyat xərclərinin çoxalmasına, görülən işlərin qiymətinin artmasına və vaxt itkisinə səbəb olurdu.

2009-cu ildə Naxçıvan Sement Zavodunun inşa edilməsi ilə muxtar respublikada bu sahədə köklü dəyişikliklər baş verdi. Müəssisənin inşasından əvvəl mütəxəssislər təbii sərvətlərlə zəngin olan muxtar respublikada sement istehsalı üçün xammal mənbələrinin müəyyən edilməsi məqsədilə geoloji axtarış işləri apardılar. Müvafiq yataqlar aşkar olunduqdan və xammalın tərkibi öyrənildikdən sonra Kəngərli rayonu ərazisində yeni Sement Zavodu tikilib. Nəticədə, muxtar respublikada investisiya qoyuluşuna görə son illərin ən böyük layihələrindən biri reallaşdırılıb.

Zavodun yerləşdiyi ərazidə istehsal sahələri, xammal və hazır məhsulun saxlanması üçün anbarlar, inzibati və iaşə binaları tikilib. Müəssisənin elektrik enerjisi ilə etibarlı təchizatı üçün ayrıca 110-35-10 kilovoltluq yarımstansiya quraşdırılıb. Naxçıvan-Sədərək magistralından zavoda iki kilometr uzunluğunda asfalt-beton örtüklü yeni avtomobil yolu çəkilib. Naxçıvan Sement Zavodu Azərbaycanın sənaye potensialının daha da möhkəmləndirilməsinə böyük töhfədir. Zavod müasir standartlara cavab verir. Müəssisənin ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, 40 hektar ərazidə 18 mindən çox müxtəlif növ ağac əkilib. Müəssisənin ətraf mühitə mənfi təsirinin azaldılması da diqqət mərkəzində saxlanılıb, burada dünya standartlarına cavab verən avadanlıqlar quraşdırılıb. Hazırda 19 əsas istehsal mərhələsindən ibarət olan müəssisə tam gücü ilə işləyir. Müəssisənin gündəlik istehsal gücü 800 ton klinkerə və 1300 ton sementə çatır. Zavod xüsusilə tikinti-quruculuq işlərinin sürətli gedən dövrlərində tələbatı ödəmək məqsədilə daha çox məhsul istehsal etməyə çalışır. Bunun üçün burada fasiləsiz üçnövbəli iş rejimi tətbiq olunur. Zavod işçilərinin əksəriyyətini muxtar respublikanın gənc sakinləri təşkil edir və onların peşə bacarıqlarının təkmilləşdirilməsi üçün lazımi tədbirlər görülür. Konveyer üsulu ilə işləyən müəssisədə texnoloji proseslərə ciddi əməl olunur. Zavodda "quru üsul" texnologiyasından istifadə edilir. Sement istehsalında bu müasir texnologiyanın üstünlüyü ondan ibarətdir ki, məhsulun yüksək keyfiyyəti təmin edilir, nəm üsul ilə müqayisədə xammalın üyüdülməsində suya ehtiyac olmur və demək olar ki, iki dəfəyə yaxın az yanacaq istifadə olunur. Bundan əlavə, bu üsul sobadan çıxan qazların və tozun həcminin kəskin azalmasını təmin edir ki, bu da, öz növbəsində, sobanın məhsuldarlığını artırır. Bu son texnologiya çox az müəssisədə tətbiq olunub. Burada istehsal edilən sement keyfiyyətinə görə muxtar respublikaya idxal olunan müvafiq məhsuldan dəfələrlə üstündür. Müəssisədə istifadə edilən bütün xammal növləri və qatqılar, o cümlədən əhəngdaşı, mergel, dəmirli gil, qabro, gips muxtar respublikanın Kəngərli, Şərur və Babək rayonlarındakı mədənlərdən əldə olunur. Zavoda daxil olan xammal müxtəlif mərhələlərdən keçərək kiçik ölçülərdə doğranır və qarışıqlarla birlikdə 1400-1600 dərəcə istidə bişirilir. Hazır məhsul sonrakı mərhələdə üyüdülüb müxtəlif ölçüdə kisələrdə qablaşdırılır, "Naxçıvan sement" əmtəə nişanı ilə satışa çıxarılır. Naxçıvan Sement Zavodu "CE" keyfiyyət nişanına layiq görülüb. Qeyd edək ki, bu keyfiyyət nişanı məhsulun Avropa tələblərinə uyğunluğunun göstəricisidir.



Beynəlxalq ekspertlər qiymətləndirmə zamanı zavodda quraşdırılan avadanlığın və keyfiyyətə nəzarət cihazlarının müasirliyi, əməyin və ətraf mühitin mühafizəsinə maksimum həssaslıqla yanaşılmasını əsas götürürlər. Zavodda istehsal xəttinə daxil olan xammal, qatqı maddələri, istehsal edilən klinkerin, sementin fiziki və kimyəvi keyfiyyətinə nəzarət müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyada həyata keçirilir. Bununla yanaşı, saatda bir dəfə istehsal xəttindən nümunələr alınaraq kimyəvi, fiziki və mexaniki analizlər aparılır. Həmin analizlərin nəticələri zavodun arxivində saxlanılmaqla yanaşı, istehlakçılara da təqdim olunur. Məhsulun qiymətinin ucuzluğu inşaat işi aparan ayrı-ayrı şirkətlər və fərdi alıcılar tərəfindən böyük rəğbətlə qarşılanır. Zavod sifarişləri vaxtında yerinə yetirmək üçün Naxçıvan şəhəri və ətraf rayonlara daşıma servislərini də həyata keçirir. Müəssisənin yüksək keyfiyyəti ilə seçilən məhsulları ölkəmizin digər bölgələri ilə yanaşı, Gürcüstanda da satışa çıxarılıb. Naxçıvan sementi ən yüksək texniki göstərici olan "CEMI 42,5N" və "CEMI 52,5N" indeksli marka ilə istehsal olunur. Zavodun məhsulundan hazırlanan beton yüksək möhkəmliyi, aşınmaya, isti və soyuğa qarşı davamlılığı ilə seçilir. İnsan amili və keyfiyyətin başlıca meyar kimi götürüldüyü müəssisədə texniki təhlükəsizlik, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarına da ciddi diqqət yetirilir.

Görülən işlərin miqyası və çoxşaxəliliyi bir daha onu göstərir ki, Naxçıvan ümummilli liderimiz Heydər Əliyevin görmək istədiyi bir diyara çevrilib və blokadada olmasına, bütün çətinliklərə rəğmən inkişaf edir, çiçəklənir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Hələ hakimiyyətinin ilk illərindən bölgələrin inkişafı olmadan Azərbaycanın inkişafının mümkün olmadığını bildirən dövlətimizin rəhbəri tövsiyə etmişdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etməli, hər bir rayon mərkəzi müasir standartlara cavab verməli, genişmiqyaslı abadlıq işləri aparılmalı, yollar, körpülər salınmalı, sosial obyektlər tikilməli, insanların gündəlik həyatında müsbət dəyişikliklər baş verməlidir. Bu tapşırıqların icrası istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını da əsl inkişafa qovuşdurmuşdur".***

✍ **Nail ƏSGƏROV**

Səhiyyə

# Müasir səhiyyə ocaqlarımızdan biri –

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzindən reportaj



***Muxtar respublikamızda səhiyyənin müasir tələblər əsasında inkişafı təmin edilib. Regionda hər il bir neçə səhiyyə müəssisəsi üçün yeni binalar inşa olunur, tibb ocaqları müasir avadanlıqlarla təchiz edilir.***

Burada əhaliyə tibbi xidmətlər göstərən səhiyyə ocaqlarından biri də Naxçıvan Diaqnostika-Müalicə Mərkəzidir. Mərkəz barədə ilkin məlumatları baş həkim Abasət Hüseynəliyevdən alırıq. O deyir:

– Bu səhiyyə ocağı 2007-ci ilin iyun ayından fəaliyyətə başlayıb. Mərkəz zirzəmi və 5 mərtəbədən ibarətdir. Birinci mərtəbədə kompüter tomoqrafiyası, nüvə-maqnit rezonans, rentgenoloji müayinə otaqlarından ibarət şüa-diaqnostika və laboratoriya şöbələri, mərkəzə daxil olan xəstələrin qəbulu və lazımi müayinələrə göndərilməsi üçün nəzərdə tutulmuş qəbul otağı, Konsultativ-diaqnostik poliklinika şöbəsinin bir neçə kabinəsi yerləşir. Hemodializ şöbəsi, Konsultativ-diaqnostik poliklinika şöbəsinin digər kabinələri ikinci mərtəbədə fəaliyyət göstərir. Üçüncü mərtəbə cərrahiyyə, anesteziologiya və reanimasiya şöbələri, əməliyyat bölməsi üçün ayrılıb. Dördüncü mərtəbədə Kardiocərrahiyyə, kardioreanimasiya şöbəsi, əməliyyat bölməsi, beşinci mərtəbədə isə mərkəzin inzibati heyəti, o cümlədən iclas və konfrans zalları yerləşir.

Baş həkim onu da əlavə edir ki, səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan mərkəzin kadr tələbatı yerli kadrlar tərəfindən ödənilir, hətta bir çox ağır əməliyyatlar burada öz peşəkar həkimlərimiz tərəfindən həyata keçirilir. Bundan əlavə, Bakıdan dəvət olunmuş həkimlər də vaxtaşırı mərkəzdə olur, müxtəlif cərrahi əməliyyatlar həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə mərkəzin həkim briqadaları tərəfindən müxtəlif rayonlarda əməliyyatlar aparılır. Bu yaxınlarda Babək Rayon Mərkəzi Xəstəxanasında 23 əməliyyat həyata keçirilib.

Mərkəzin baş həkiminin müavini Zaur Həsənov isə bildirir ki, Diaqnostika-Müalicə Mərkəzi maddi resurslardan və kadr potensialından səmərəli istifadə edir. Tibb ocağı mərkəzləşdirilmiş funksional, instrumental və başqa tədqiqat metodlarından istifadə etməklə müayinələri həyata keçirən səhiyyə müəssisəsidir. Mərkəzin Cərrahiyyə şöbəsində ümumi cərrahi, neyrocərrahi, plastik cərrahi, ginekoloji, uroloji, travmatoloji, laparoskopik, ortopedik, göz və sair əməliyyatlar həyata keçirilir. Bunun üçün mərkəzdə lazımi şərait yaradılıb.

Bəzi şöbələri gəzmək, onların fəaliyyəti ilə əyani tanış olmaq üçün Zaur həkim məni müşayiət edir. İlk olaraq oftalmologiya kabinəsinə üz tuturuq. Oftalmoloq Məhəmməd Vəliyev bildirir ki, kabinədə diaqnostika və müalicə prosesində ən müasir tibbi üsullar tətbiq edilir. Kabinədə kompüter-tonometr, biomikroskop, oftalmoskop, fakometr, vertikal-horizontal prizmalar, eləcə də digər müasir tibbi avadanlıq və cihazlar qurulub. Hazırda mərkəzdə çalışan yerli həkimlər tərəfindən müxtəlif göz əməliyyatları müstəqil şəkildə həyata keçirilir. Bunlara katarakt (mirvari suyu), burun, göz yaşı kanalı tutulmaları, gözün üst qapağının enməsi (ptoz) və müxtəlif göz travma əməliyyatlarını misal göstərmək olar. Əməliyyatlar uğurla həyata keçirilir. Burada valideyn Hüsniyyə Mərdanova ilə rastlaşıb onunla həmsöhbət oluruq. Onun dedikləri:

– Qızım uzağı görmədən əziyyət çəkirdi. Bir ildən artıqdır ki, mütəmadi olaraq onu buraya həkim müayinəsinə gətirirəm. Müalicələr nəticəsində görməsində yaxşıya doğru xeyli irəliləyiş var. Həkimin dediyinə görə, yaşı az olduğundan müalicə düzgün şəkildə davam etdirilsə, qısa zamanda eynəyi birdəfəlik ata bilər.

Hemodializ şöbəsində böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə xidmət göstərilir. Şöbə müdiri Mustafa Əliyev bildirir ki, 6 ildir rəhbərlik etdiyi bu şöbədə hazırda 43 dializ xəstəsinə yardım göstərilir. Onlara həftədə 3 dəfə olmaqla, 4 saatlıq proqramlı hemodializ seansı keçilir. Əlbəttə ki, göstərilən xidmət dövlət hesabınadır. Şöbə 2 növbə ilə işləyir.

Böyrək çatışmazlığından əziyyət çəkən Qəzənfər Vəliyev:

– Kəngərli rayonunun Qarabağlar kəndindənəm. 2007-ci ildən davamlı olaraq seanslarda iştirak edirəm. Bizə qayğı göstərən tibbi personala çox minnətdaram.

Xəstələrə təxirəsalınmaz ambulator və stasionar yardım göstərmək üçün mərkəzdə Təcili yardım şöbəsi də vardır. Burada xəstələrin qəbulu, kiçikhəcmli cərrahi müdaxilələrin aparılması, diaqnozları dəqiqləşdirilənə qədər palatalarda yerləşdirilməsi, onlara təxirəsalınmaz tibbi yardım göstərilməsi təşkil olunur.

Kardiocərrahiyyə, kardioreanimasiya şöbəsinə baş çəkirik. Burada ürək-damar xəstəliklərinin müayinəsi müasir tibbi avadanlıq və cihazlarla, EKQ, ExoKQ, holter monitorinqi, təzyiq holteri, tredmil testi vasitəsilə həyata keçirilir. Eyni zamanda periferik damarların dopler müayinəsi, koronar angioqrafiya, kateterizasiya müayinələri, invaziv ürək, açıq ürək və damar əməliyyatları da icra olunur. Eşitmişdim ki, burada açıq ürək əməliyyatları edilir, həm də öz yerli kadrlarımız tərəfindən. Həmsöhbət olmaq üçün ürək-damar cərrahı Cabir Gülmalıyevə yaxınlaşmaq istəyirəm, lakin bildirirlər ki, həkim hazırda əməliyyatdadır. Nəhayət, əməliyyat başa çatır. Həkimlə görüşürük. Onun dedikləri:

– Artıq bir ildir ki, burada, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində açıq ürək əməliyyatları həyata keçirilir. 2016-cı il may ayının 26-da Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahı İntiqam Fətullayev və anestezioloq-reanimatoloq Şahin Mazanov ilə birlikdə ilk dəfə olaraq müstəqil şəkildə 2 açıq ürək əməliyyatı etmişik. Hazırda kardioloji xəstələrin invaziv müalicələri, açıq ürək-damar, protez qapaqların implantasiyası, damar tıxanıqlığı, aorta cərrahiyyəsi əməliyyatları yerli mütəxəssislər tərəfindən müvəffəqiyyətlə aparılır. Bunun üçün xəstəxana lazımi avadanlıqlarla təchiz olunub. Onu da qeyd edim ki, əməliyyat heyəti tamamilə yerli kadrlardan təşkil edilib. Bu günə qədər xəstəxanada 150-yə yaxın müxtəlif ürək əməliyyatı aparılıb.

Qeyd edək ki, əvvəllər belə mürəkkəb əməliyyatlar üçün xəstələr ölkəmizin paytaxtına və digər ünvanlara üz tutmalı olurdularsa, bu gün rahatlıqla muxtar respublikada müalicə ala bilərlər. Eyni zamanda mərkəzdə müasirtipli avtoanalizatorlarla təchiz edilmiş laboratoriyada qanın ümumi və biokimyəvi, orqanizmin maye mühitlərinin tam dəqiq analizlərini, qanın hormonlarının və müasir onkologiyanın son nailiyyəti olan onkomarkerlərin analizini aparmaq mümkündür.



Öyrənirik ki, burada qan xidməti məsələləri də diqqətdə saxlanılır, Qan bankında tədarük olunan qan və onun komponentlərinin miqdarı ilbəil artır, əhalinin donorluğa cəlb edilməsi işi aktivləşdirilir.

Avadanlıqlara gəldikdə isə Yaponiyanın "Olimpus" firmasının istehsalı olan endoskopik aparatlarla yuxarı tənəffüs yolları və bronxları, yemək borusu, mədə, onikibarmaq və yoğun bağırsaqları diaqnostik məqsədlə müayinə etmək, bu orqanlarda olan qanaxmanı dayandırmaq, mikroskopik müayinələr aparmaq üçün şübhəli törəmələrdən nümunə götürmək mümkündür. Eləcə də litotriptoz aparatının köməyi ilə böyrəklərdə olan daşlar cərrahi müdaxilə aparmadan ultrasəs dalğaları ilə parçalanıb xaric edilir.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün Azərbaycan səhiyyəsi özünün inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışında dediyi bu sözləri xatırladaq: ***"Biz elə etməliyik ki, Azərbaycanın hər bir yerində insanlar keyfiyyətli tibbi xidmət ala bilsinlər. Bəzi hallarda bəzi vətəndaşlar müalicə üçün xaricə üz tuturlar. Hesab edirəm, biz elə sistem yaratmalıyıq ki, əksinə, xaricdən Azərbaycana müalicə və müayinə üçün gəlsinlər".***

Tibbin aciz qaldığı xəstəlik çox azdır. Cansağlığı Tanrının insanlara bağışladığı gözəl nemət, dəyərli hədiyyədir. Heç bir xəstə ağırlaşacağı, yaxud da öləcəyi düşüncəsi ilə xəstəxanalara üz tutmur. Əksinə, vəziyyətinin yaxşı olmadığını bilsə belə, bir gün sağalacağı ümidi ilə həkimlərə müraciət edir. Çünki can şirindir. Xəstənin içində kök salan o kiçik ümid toxumu zamanla cücərir və bir çox hallarda onun sağalmasında müəyyən rol oynayır. Arzu edirik ki, heç kimin yolu xəstəxanalara düşməsin, amma işdi, elə bir şey olarsa belə, ümid edin, əmin olun ki, milli səhiyyəmizin bugünkü inkişaf səviyyəsi, ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş müasir səhiyyə ocaqlarımız, ən əsası isə burada çalışan peşəkar həkimlərimiz və tibbi personal sayəsində yenidən öz sağlamlığınıza qovuşacaqsınız.

**Fatma BABAYEVA**

Yeni nəşrlər

***Muxtar respublikada "Naxçıvan təbiəti" albom-kataloqu işıq üzü görüb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxan yeni nəşrdə Naxçıvanın zəngin təbiətini, flora və faunasını əks etdirən bir-birindən maraqlı fotoşəkillər oxuculara təqdim olunur.***

# "Naxçıvan təbiəti" albom-kataloqu çapdan çıxıb




Fotoşəkillərdə əks olunan ərazilər barədə Azərbaycan, rus və ingilis dillərində məlumat verilir. Yeni nəşrin giriş hissəsində Naxçıvan Muxtar Respublikasının ərazisi, coğrafi mövqeyi, qədim tarixi və müasir inkişafı barədə üç dildə məlumat yer alır. Qeyd olunur ki, muxtar respublika ərazisində olan 1200-dən çox qədim tarixi abidə xalqımızın zəngin mədəni irsindən xəbər verir. Beşminillik şəhər mədəniyyətinə malik Naxçıvan 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilib. Qədim tarixi, müasir inkişafı, zəngin mədəniyyəti və təhlükəsiz həyat şəraiti Naxçıvanda turizmin inkişafına səbəb olub.

Albom-kataloqda qədim diyarın coğrafi mövqeyi barədə oxucuları maraqlandıran faktlar diqqətə çatdırılaraq bildirilib ki, Naxçıvan Muxtar Respublikası Cənubi Qafqaz yaylasının cənub-şərqində yerləşir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 metrdir. Mövcud 11 iqlim tipinin 9-na muxtar respublika ərazisində təsadüf olunur. Ərazinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz dağ silsilələri əhatə edir. Ən hündür zirvəsi Qapıcıq dağıdır (3904 metr). Ərazinin üçdəbir hissəsini Arazboyu düzənliklər təşkil edir. 200-dən çox mineral su bulağı, 400-dək böyük və kiçik çayı var. Naxçıvanda Azərbaycanın nadir fauna və florası yerləşir. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na daxil edilib və xüsusi mühafizəyə alınıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir.

# Mülki Müdafiə Alayının gənc əsgərləri and içiblər



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız meydana gətirilib. Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Alay komandiri, kapitan Əjdər Nağıyev hərbi andın əhəmiyyəti barədə məlumat verib, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib. Mərasimdə çıxış edən baş leytenant Röyal Quliyev, əsgər Əfqan Aslanov, gənc əsgər Əhməd Əhmədov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, valideynlər adından isə Nazim Ələkbərli gənc əsgərləri təbrik ediblər. Mərasimdə Azərbaycan əsgərlərinin rəşadət və igidliyindən danışılıb.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov çıxışında Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolunu yüksək qiymətləndirib.

Gənc əsgərlər Vətənimizə, xalqımıza layiqli əsgər olacaqlarına, hərbi anda həmişə sadiq qalacaqlarına və tapşırıqları vaxtında yerinə yetirəcəklərinə söz veriblər.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**

# Güləş və Boks federasiyalarının yetirmələri Ağbulaq İstirahət Mərkəzində olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə muxtar respublikanın Gənclər və İdman Nazirliyi, Həmkarlar İttifaqı Şurası, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları tərəfindən Ağbulaq İstirahət Mərkəzində idmançıların "Yay məktəbi" təşkil edilib.

Mərkəzin ilk qonaqları Güləş və Boks federasiyalarının 60 idmançısı olub. Naxçıvan şəhərindən avtobusla yola düşən idmançılar Ağbulaq İstirahət Mərkəzi ilə tanışlıqdan sonra proqrama uyğun olaraq müxtəlif stolüstü oyunlarda mübarizə aparıblar. Şahmat, dama kimi zehni oyunlarda idmançıların nümayiş etdirdikləri peşəkarlıq diqqətdən yayınmayıb. Müxtəlif əyləncəli oyunlarda iştirak edən idmançılar sonra vətənpərvərlik mövzusunda filmə baxıblar.

Növbəti günə səhər gimnastikası ilə başlayan federasiyaların yetirmələri proqrama uyğun olaraq müxtəlif idman yarışlarında qüvvələrini sınayıblar. Mərkəzin stadionunda keçirilən mini-futbol yarışı daha çox marağa səbəb olub. Bununla yanaşı, idmançılar voleybol, dama kimi idman növlərində də öz güclərini sınayıblar.

Növbəti – üçüncü gün idmançıların Şahbuz Dövlət Təbiət Qoruğunda gəzintisi təşkil edilib. İdmançıların Ağbulaq İstirahət Mərkəzinə səfəri maraqlı və yaddaqalan olub.

**Ceyhun MƏMMƏDOV**

***Artıq neçə ildir ki, mənfur Ermənistan tərəfindən elan olunmamış müharibəyə cəlb edilmişik və bunun nəticəsində torpaqlarımızın bir hissəsi işğala məruz qalıb. Belə bir şəraitdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması aktual məsələ kimi böyük əhəmiyyət kəsb edir. Çünki vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə, bütöv bir xalqın gələcəyini təmin edən amillərin ən mühümüdür. Gənclərin buna yiyələnmələri, bütövlükdə, dövlətin ümummilli ideologiyasının qorunması baxımından müstəsna əhəmiyyətə malikdir.***

# Gənc nəslin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzində saxlanılır

Xalqımız hər zaman gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına diqqət göstərib və ona ən vacib məsələ kimi baxıb. Qeyd edək ki, insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradan, apardığı mübarizədə onda inam hissini gücləndirən vətənpərvərlik tərbiyəsi ailədə, tərbiyə müəssisələrində və ümumtəhsil məktəblərində uşaq və yeniyetmələrə verilən vahid tərbiyə işinin vacib tərkib hissəsidir.

Vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elinə, obasına, yurduna, vətəndaşı olduğu ölkəyə məhəbbətdən doğan ən ali və əzəli hisslərdəndir. Vətən naminə çalışmaq, onu qorumağa hər an hazır olmaq, bu yolda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın, soydaşlarının hər bir uğuruna sevinmək hissi təbii olsa da, bütün digər hisslər kimi tərbiyəyə ehtiyacı var və təbliğat yolu ilə daha da möhkəmlənir. Bu gün hüquqi, demokratik dövlət quruculuğunun inkişaf etdiyi ölkəmizdə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi prioritet istiqamətlərdən birinə çevrilib. Gənclərlə bağlı qəbul edilmiş hüquqi-normativ aktlarda, fərman və sərəncamlarda, dövlət proqramlarında gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi ilə bağlı tədbirlər və təkliflərin öz əksini tapması ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunun gücləndirilməsi sahəsində həyata keçirilən işlərin uğurla davam etdirilməsindən xəbər verir.

Şübhəsiz ki, hər bir insanda vətənpərvərlik tərbiyəsinin əsası ailədə qoyulur. Ona görə də ailədə bu tərbiyə yalnız planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalı, uşaqların yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnməsinə və şəxsiyyət kimi formalaşmasına daim diqqət yetirilməlidir. Çalışmaq lazımdır ki, uşaqlar nizam-intizamlı, savadlı böyüsün, ölkəmizin tarixini, coğrafiyasını, mədəniyyətini, milli dəyərlərini bilsin və Vətəni sevsinlər.

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən biri olduğundan onun böyüməkdə olan nəslə aşılanması ailə və məktəbin ən vacib vəzifələrindən hesab edilir. Günü-gündən müasir dövrə uyğun şəkildə inkişaf etdirilən Azərbaycan təhsilinin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz ölkəmizdə sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsi işinin məntiqi davamıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev təhsil işçiləri ilə çoxsaylı görüşlərinin birində vətənpərvərlik tərbiyəsində, uşaq və gənclərin Vətənə məhəbbət ruhunda böyüməsində məktəblərin rolunu yüksək qiymətləndirərək demişdir: ***“Bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarında vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən də humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin”.***

Bu mənada, gənc nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə xüsusilə böyük vəzifələr düşür. Onlar məktəbə gələn uşaqlara ilk günlərdən Vətənə məhəbbət hissini aşılamalıdırlar. Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərə ilkin hərbi bilik, bacarıq və vərdişlərin aşılanmasının onların hərbi-vətənpərvərlik tərbiyəsinə böyük təsiri vardır. Bu məqsədlə ümumtəhsil məktəblərində “Şahin”, “Sərhəd”, “Vətənin müdafiəsinə hazıram” hərbi-idman və turizm oyunları keçirilir. Müharibə şəraitində yaşayan ölkəmizdə məktəblərdə hərbi hazırlıq dərslərinin yüksək səviyyədə təşkili məqsədilə müasir əyani vəsaitlərlə təchiz edilmiş hərbi kabinələrin yaradılmasına və tədrisin ixtisaslı kadrlar tərəfindən aparılmasına xüsusi diqqət göstərilir. Sözsüz ki, bu dərslərin gənc nəslin gələcəyin vətənpərvər vətəndaşı kimi tərbiyələnməsində böyük rolu vardır. Eyni zamanda orta məktəb şagirdlərinin hərbi hissələrə aparılması, onların hərbçilərlə görüşlərinin təşkil edilməsi gənclərdə vətənpərvərlik tərbiyəsini daha da yüksəldir, onları Vətəni qorumağa ruhlandırır.

Vətənpərvərlik tərbiyəsi həmçinin gənc nəslin mənsub olduğu milli dəyərlərə, tarixi ənənələrə bağlılığını da özündə ehtiva edir. Vətənin tarixi keçmişini dərindən bilmək, milli dəyərlərinə sahib olmaq, adət-ənənələrini öyrənmək, maddi və mənəvi sərvətlərini qorumaq vətənpərvər insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdəndir. Bu keyfiyyətləri gənclərə aşılamaq üçün isə gənc nəslin tarixi yerlərə gəzintisini təşkil etmək, tarixi günlərə həsr olunmuş tədbirlər keçirmək böyük əhəmiyyət kəsb edir.

Bu gün muxtar respublikamızdakı orta və ali məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına, idmana ciddi fikir verilir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, onları Vətənin hər daşını, hər qarış torpağını tanıtmaq ruhunda tərbiyə etmək məqsədilə müxtəlif tədbirlər, layihələr həyata keçirilir. Bu istiqamətdə fəaliyyətinə böyük əhəmiyyət verən Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatı da gənc nəsildə milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi ilə bağlı aidiyyəti qurumlarla birgə tədbirlər təşkil edir, milli qəhrəmanlarımızın gənclər arasında geniş təbliğ olunur. Ümumtəhsil müəssisələrində vətənpərvərlik tərbiyəsinə aid torpağa, Vətənə məhəbbət hisslərini aşılayan tədbirlər reallaşdırılır. Müharibə iştirakçıları ilə məktəblilərin, gənclərin görüşləri keçirilir.

Qürur hissi ilə deyirik ki, bu gün ölkəmizdə Vətənini sevən, hər zaman onun tərəqqisinə çalışan, azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər ordusu formalaşıb. Bu isə, öz növbəsində, gəncliyə yaradılan hərtərəfli şərait, göstərilən dövlət qayğısı sayəsində mümkün olub. Gənclər Vətən qarşısında öz vətəndaşlıq vəzifələrini layiqincə başa düşür və ərazi bütövlüyümüzün qorunmasında, milli dövlət quruculuğunda fəal iştirak edirlər. Bu isə onu təsdiqləyir ki, bütün sahələrdə uğurlar qazanan Azərbaycan gəncliyi düşmən tapdağı altında olan torpaqlarımızı da hər an azad etməyə hazırdır. Buna görə də xalqımız əmindir ki, yaxın vaxtlarda işğal altında olan torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaqdır.

**Mirməcid SEYİDOV**
***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının sədri***



# Sən, ey dağlar gözəli Batabat

## *Hüsnündən ruhuma bir az sevgi, bir az da gözəllik qat*

## *(Esse)*

**Salam, a dağlar gözəli! Salam, al-qırmızı donlu, gözü zülmət gecə qarası lalələri ilə ən daş ürəkləri belə, ehtizaza gətirən yaylaqlar yaylağı! Yenə səni görməyə, buz kimi suyundan içməyə, tüstülü şəhər havası ilə boğulub məndən məded uman ciyərlərimə sərin mehindən bir nəfəslik də olsa, udmağa gəlmişəm.**

**Sən yenə də əvvəlki kimi gözəl, yenə də əvvəlki kimi füsunkar, əvvəlki kimi təravətlisən. Salvartının buzlu havası səni təkrar ürəyəyatımlı, məlahətli və əvəzolunmaz edib. Əlçatmaz, ünyetməz sıldırım qayalarda yuva salan qartalların qanadlarının kölgə saldığı gül-çiçəkli çəmənlərdə gəzib yenə səni vəsf etmək istəyirəm. Ancaq sənin ətir qoxan yamaclarını, bumbuz göllərini, dumduru göz yaşı kimi çağlayan bulaqlarını, yamyaşıl meşələrini vəsf etmək üçün saz da, söz də acizdir. Dünyanın ən böyük ustadlarını da gətirsən, bəstəkarlarını da bir araya yığsan, gözəlliyin qabağında şeir də aciz qalar, musiqi də, rəsm əsəri də. Sən elə incəsənətin özüsən. Tanrının insanlara bəxş etdiyi ən gözəl sənətlər səndə başlayır, səndə də başa çatır!**

**Dişgöynədən Zorbulağında çox qızlar sudakı əksinə baxıb, öz gözəlliyi ilə öyünüb, at üstündə çox igidə su veriblər. Suyundan almağa gələn xanımlarımız elə bu bulaq başında bir baxışı ilə sevdiyi igidə ümid olub. Yaylaqlarında çox igid ox atıb, qılınc oynadıb, qurşaq tutub öz məharətlərini göstərib. Hər dəfə səndən yolumu salanda, sənə pənah gətirəndə qulağıma köhlənlərin kişnərtisi, alp ərənlərin, dünya mənim deyənlərin nərəsi gəlir. Quşların şən-şaqraq hayqırışlarından, bülbüllərin nəğməsindən, narın yağan yağış damlalarının əks-sədasından, bal toplayan arıların qanad çırpıntılarından, şahinlərin qıy vurmalarından ulu Dədə Qorqudumun qopuzunun tellərinin səsi gəlir. Bəli, sən Vətənsən! Vətənin başlandığı yer, Adəm övladının ilk məkanlarından biri, qorxmaz, düşmən qarşısında əyilməz əsgərimin çəkməsinin cığırlara naxış saldığı yurdumun sərhədində bir cənnət parçasısan!**

**Oba-oba, oymaq-oymaq bütün dünyanı gəzsəm də, səndən gözəlini tapmayacağımı bilirəm. Dünyanın hansı məkanında olursam olum, sənin mənim qəlbimdə ayrı yerin var. Çünki sən dünyaya ün salan qəhrəman oğuzların oylağı, dan yeri söküləndə də, Günəş qüruba enəndə də, buludlar düz dünyanı suya-selə qərq edəndə də öz əsrarəngiz gözəlliyini insanlardan əsirgəməyən Batabatsan!**

✍ **Səbuhi HÜSEYNOV**

# Futbol birinciliyində növbəti görüşlər keçirilib

***Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd futbol komandaları arasında şəhər və rayon birinciliyinin növbəti oyunları keçirilib.***



Şərur rayonunda növbəti mərhələyə Dizə və Yaycı kənd komandaları yüksəlib. Dizəlilər Kosacan, yaycılılar isə Siyaqut kənd komandalarını penalti zərbələrindən sonra 5:2 hesabı ilə məğlub ediblər. Babək rayonunda da azarkeşlər iki görüşə şahidlik ediblər. Dairəvi sistem üzrə keçirilən görüşlərdə Qahab kənd komandası Çeşməbasar kənd komandasını məğlub etsə də (3:0), Vayxır və Cəhri komandalarının görüşündə qalib müəyyənləşməyib – 2:2.

Şahbuz rayonunda Kükü kənd komandası da adını növbəti mərhələyə yazdırıb. Onlar Aşağı Qışlaq kənd komandasının qapısından 5 cavabsız top keçiriblər – 5:0. Ərəzin kənd komandası isə Culfa rayonunda ilk yarımfinala yüksələn komanda adını qazanıb. Göydərə kənd komandasını 4:1 hesabı ilə məğlub etməklə, Ərəzin futbolçuları buna müvəffəq olublar. Ordubad rayonunda isə azarkeşlər gərgin oyuna tamaşa ediblər. Aza və Kələntər Dizə kənd komandalarının görüşü 1:1 hesabı ilə yekunlaşıb. Penalti zərbəsini daha dəqiq yerinə yetirən ikincilər növbəti mərhələyə yüksəliblər – 3:4.

Sədərək rayonunda Heydərabad və Qaraağac kənd komandaları üzüzə gəlib. Görüş birincilərin 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Bu turun ən bolqollu oyunu Kəngərli rayonunda olub. Şahtaxtı və Qarabağlar kənd komandalarının görüşündə 8 qol qeydə alınıb. Belə ki, oyun 7:1 hesabı ilə Şahtaxtı kənd komandasının xeyrinə başa çatıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayonunun Tumaslı kənd sakini Məmmədov Elşən Neymət oğlunun adına olan JN-272A inventar nömrəli 10208048 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 663**